# Vətəndaşların qəbulu



Ayın əvvəlində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların növbəti qəbulu keçirilmişdir. Qəbul zamanı vətəndaşlar RİH başçısı tərəfindən fərdi qaydada dinlənilmiş, qaldırılan bir çox məsələlər yerindəcə həll edilmiş, digərlərinin həlli istiqamətində aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

# Qəbələ Rayon İcra Hakimiyyətində vətəndaşların növbəti qəbulu keçirilib



10 mart 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin və müharibə iştirakçılarının da iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilib, bir qismi yerindəcə həll olunub, digərlərinin həlli istiqamətində aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

# Qəbələdə "Heydər Əliyev İli" çərçivəsində ağacəkmə aksiyası keçirilmişdir

2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar 15 mart 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin və YAP Qəbələ rayon təşkilatının təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilmişdir. Tədbirdə Rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların nümayəndələri və Qəbələ könüllüləri xüsusi ayrılmış ərazidə 3400 ədəd ağac əkmişdir.



# Şura iclası keçirilmişdir

14 mart 2023-cü il tarixində Qəbələ Rayon İcra Hakimiyyətində 2022-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2023-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş şura iclası keçirilmişdir. İclasda şura üzvləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin, təşkilatların rəhbərləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ötən ilin sosial-iqtisadi yekunları və 2023-cü ildə qarşıda duran məsələlər barədə məlumat vermişdir. İclasda həmçinin Vətən müharibəsi şəhidlərinin ailələrinin, eləcə də müharibə iştirakçıları və qazilərin evlərində ziyarət olunması, onlarla görüşlərin keçirilməsi və onları narahat edən problemlərin həlli istiqamətində görülmüş işlər təhlil edilmiş, “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli Sərəncamının icrası ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir.





# Səyyar qəbullar

Həyatda ta yaranışdan insanlar həmişə yaşadığı müddətdə müxtəlif problemlərlə qarşılaşmışlar. Bu isə təbii bir haldır. Həyat davam edirsə, insanlar öz həyat tərzini qurmaq və formalaşdırmaq üçün daim çalışırlar. Qarşılaşdıqları maneələri dəf etmək üçün onlar bir-birinə kömək edir, öz insanlıq missiyalarını həyata keçirirlər. Yaşadığımız zaman illərin qovşağında öz tərzini dəyişir. Bu dəyişikliyə uyğunlaşarkən qarşıya çıxan bir sıra problemlər həyat tərzini çətinləşdirir. Belə olduqda xeyirxah insanların fəaliyyəti, aidiyyəti təşkilatların köməkliyi ilə insanların qarşılaşdığı maneələr aradan qaldırılır.





Tüntül kəndi.



Çuxur Qəbələ kəndi.





Böyük Əmili kəndii.

Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur, onlara həm psixoloji, həm də müəyyən mənada maddi dəstəklər olunur və insanlar öz həyatlarına davam edirlər.

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Keçən il olduğu kimi bu il də səyyar qəbulların keçirilməsi davam edir. Bu ilin mart ayından səyyar qəbul Tüntül, Çuxur Qəbələ və Böyük Əmili kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.